# Klassik avtomobil həvəskarlarını sevindirən qərar

***Azərbaycanda nadir avtomobillərin idxalına vergi güzəşti tətbiq olunacaq. Milli Məclisdə müzakirəyə çıxarılan Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" qanuna təklif edilən dəyişikliklərə əsasən, müəyyən şərtlər daxilində nadir avtonəqliyyat vasitələrinin idxalı ƏDV-dən, aksizdən və gömrük rüsumundan azad ediləcək. Qanunvericiliyə əsasən, mühərriki, banı və şassisi orijinal vəziyyətdə olan və ya orijinal vəziyyətə gətirilmiş, zavod buraxılış tarixindən 40 ildən çox keçmiş avtomobillər raritet avtonəqliyyat vasitələri hesab olunur.***



*"Bu qərarın qəbul edilməsi təsadüfi deyil və bir müddətdir kolleksiyaçılar tərəfindən bu istiqamətdə təkliflər irəli sürülürdü*

## Qərar

Yeni dəyişiklik isə bu kateqoriyaya daxil olan avtomobillərin ölkəyə gətirilməsi zamanı idxal xərclərini xeyli azaltmağa yönəlib. Qeyd olunur ki, vergi və gömrük güzəşti avtomatik tətbiq edilməyəcək. Dəyişikliyə əsasən, raritet avtomobillərin idxalı yalnız müvafiq dövlət orqanının təsdiqedici sənədi əsasında həyata keçiriləcək. Yeni avtomobilin həqiqətən raritet statusuna uyğun olub-olmaması rəsmi qaydada təsdiqlənməlidir. Bu yanaşma, eyni zamanda, sui-istifadə hallarının qarşısını almağa xidmət edir.

Bundan əlavə, idxal limitləri də müəyyənləşdirilib. Belə ki, bir şəxs təqvim ili ərzində yalnız 1 ədəd raritet avtomobil idxal edə biləcək. Ümumilikdə isə ölkə üzrə bir il ərzində bu tip avtomobillərin idxalı 10 ədədlə məhdudlaşdırılacaq. Bu limitlər nadir avtomobil idxalının kommersiya məqsədli kütləvi daşınmaya çevrilməsinin qarşısını almaq və təşəbbüsün əsasən kolleksiyaçılar və avtomobil həvəskarları üçün nəzərdə tutulduğunu göstərmək baxımından diqqət çəkir. Yeni dəyişikliklərin əsas məqsədi təkcə idxal xərclərini azaltmaq deyil, eyni zamanda Azərbaycanda klassik və tarixi avtomobil mədəniyyətini inkişaf etdirməkdir. Raritet avtomobillər adi istifadə üçün nəzərdə tutulan nəqliyyat vasitələri sayılmır, daha çox kolleksiya dəyəri, tarixi əhəmiyyəti və estetik xüsusiyyətləri ilə seçilir. Dövlətin bu addımı atması retroavtomobil sərgilərinin, avtomobil klublarının və bu sahədə həvəskar fəaliyyətin genişlənməsinə təkan verə bilər. Ekspertlərin fikrincə, raritet avtomobillərin idxalının ƏDV-dən, aksizdən və gömrük rüsumundan azad edilməsi həmin avtomobilləri ölkəyə gətirən şəxslərin xərclərini ciddi şəkildə azaldacaq. Bu isə avtomobil kolleksiyaçılığı ilə məşğul olan şəxslər üçün daha əlverişli imkan yaradacaq. Eyni zamanda, belə avtomobillərin ölkəyə gətirilməsi servis və bərpa sektoruna da təsirsiz ötüşməyəcək. Klassik avtomobillərin saxlanılması, təmiri və bərpası xüsusi ustalıq və ehtiyat hissələri tələb edir. Bu baxımdan retro avtomobil təmiri sahəsinin inkişaf etməsi, yeni xidmət növlərinin yaranması da mümkün görünür. Bununla yanaşı, yeni qərarın ümumi avtomobil bazarına təsiri genişmiqyaslı olmayacaq. Tətbiq edilən limitlər olduqca məhduddur: hər şəxsə ildə 1 avtomobil, ölkə üzrə isə cəmi 10 avtomobil. Bu da göstərir ki, dövlət bu güzəşti bazarda kütləvi ucuzlaşma yaratmaq üçün deyil, məhz nadir avtomobillərin idxalını təşviq etmək üçün tətbiq edir. Yəni bu qərarın adi minik avtomobillərinin qiymətlərinə ciddi təsir etməsi gözlənilmir.

Digər tərəfdən, bəzi hallarda "raritet" adı altında köhnə avtomobillərin güzəştli şəkildə idxal edilməsi riski də mövcuddur. Lakin bunun qarşısını almaq üçün müvafiq dövlət orqanının təsdiqedici sənəd tələbi irəli sürülüb. Bu mexanizm düzgün tətbiq olunarsa, sui-istifadə hallarının qarşısı alınacaq və güzəştlər yalnız həqiqətən tarixi dəyəri olan avtomobillərə şamil ediləcək.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov hesab edir ki, bu qərarın qəbul edilməsi təsadüfi deyil və bir müddətdir kolleksiyaçılar tərəfindən bu istiqamətdə təkliflər irəli sürülürdü.** Onun sözlərinə görə, retro avtomobillərin ölkəyə daha güzəştli şərtlərlə gətirilməsinə icazə verilməsi həm maraqlı bir təşəbbüs, həm də avtomobil mədəniyyətinin inkişafına yönəlmiş addımdır.

Ekspert vurğulayır ki, məsələ yalnız köhnə avtomobillərin idxalından ibarət deyil. Burada əsas məqsəd zavod istehsalı olan, bütün detallarına qədər orijinallığını qoruyan retro avtomobillərin ölkəyə gətirilməsidir. Yəni sadəcə yaşı 40-ı keçmiş avtomobillər deyil, məhz tarixi və texniki baxımdan dəyər daşıyan, zavod buraxılışına uyğun formada qorunub saxlanılmış nəqliyyat vasitələri nəzərdə tutulur.

A. Əsədov qeyd edir ki, bu qərarın avtomobil bazarına ciddi təsir göstərəcəyi gözlənilmir. Retroavtomobillər kütləvi istehlak bazarının məhsulu deyil, daha çox bahalı kolleksiya vasitəsidir. Bu avtomobillərin həm alınması, həm də saxlanılması yüksək xərc tələb edir. Ehtiyat hissələrinin qiyməti çox bahadır, onların təmiri və bərpası ilə məşğul olan ustaların xidmət haqqı da adi avtomobillərlə müqayisədə qat-qat yüksəkdir. Bu səbəbdən, həmin avtomobillərin ölkəyə gətirilməsi ümumi bazarda qiymətlərin dəyişməsinə və ya geniş satış axınına səbəb olmayacaq.

Ekspert əlavə edir ki, bu tip avtomobillərin idxalının əsas motivlərindən biri də turizmin inkişafıdır. Onun fikrincə, retroavtomobillər ölkədə müxtəlif tədbirlərdə, sərgilərdə, turizm layihələrində istifadə oluna bilər və Azərbaycanın turizm potensialına fərqli rəng qatmaq baxımından maraqlı bir istiqamət kimi qiymətləndirilir.

*Sevinc*